**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

---

Bakı şəhəri 2 avqust 2013-cü il

## Azərbycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirakı əhatə edən xüsusi layihələrin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-2-2013-4(10)) nəticələri haqqında

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində elmi-tədqiqat işləri ilə məşğul olan alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirak, Azərbaycanda alınmış elmi nəticələrin tanıdılması, təcrübə mübadiləsi və yeni əlaqələrin qurulması imkanı yaratmaq məqsədilə Elmin İnkişafı Fondunun xüsusi layihələrinin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-2-2013-4(10)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsinin keçirilməsi haqqında qərarını 10 may 2013-cü il tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin qəbulu üçün müddəti 2013-cü il 13 may - 14 iyun tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə 4 məsləhət seminarı təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 28 layihə daxil olmuşdur. 2013-cü il 14 iyun - 20 iyul tarixlərini əhatə edən müddətdə müsabiqəyə daxil olmuş layihələrin

ekspertizası işi təşkil olunmuş, müsabiqə qaydaları və tələblərinə cavab verməyən 3 layihə texniki ekspertiza mərhələsindən keçməmiş, 25 layihə isə elmi ekspertiza mərhələsinə buraxılmışdır.

3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələrin səviyyəsini, onların yerinə yetirilməsi imkanlarını və potensialını ekspertiza qaydalarına uyğun olaraq qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün arayışlar hazırlamışdır.
4. Elmin İnkişafı Fondunun icraçı direksiyasının, daimi və müstəqil elmi ekspertlərin hər bir layihə üzrə hazırladığı və müvafiq məlumatların daxil olduğu yekun sənədlər toplusuna Elmin İnkişafı Fondunun Himayədarlar Şurası tərəfindən baxılmış, layihələr müzakirə olunmuş, yekun qəbul edilmiş və Himayədarlar Şurasının 2013-cü il 26 iyul tarixli protokolu ilə təsdiq edilmişdir.
5. 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsi üzrə 13 qalib layihə müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun 2013-cü il 2 avqust tarixli Qərarı ilə təsdiq olunmuşdur.
6. 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsi üzrə ümumi maliyyələşdirilmə həcmi 67 200 manat olmuşdur.
7. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.
8. Elmin İnkişafı Fondu 2013-cü il üçün 2-ci "Mobillik qrantı" müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və ekspertlərə minnətdarlığını bildirir.

***Elmin İnkişafı Fondunun icraçı direksiyası***